# Vətən müharibəsinin qalib şəhidi



***Azərbaycanın müqəddəs parçası olan Qarabağ torpaqlarını qanı bahasına geri alan, 30 illik həsrətə son qoyan minlərlə Vətən sevdalılardan olan Xaqani Anar oğlu Babazadə Astara rayonunun Kijəbə qəsəbəsində dünyaya göz açmışdı. Elə uşaqlıqdan ilahi bir məhəbbətlə bağlandığı Vətəni yaşatmaq üçün doğulmuşdu Xaqanı. Özünü biləndən insanlara fayda verməyi, məqamında yurduna dayaq durmağı özünə həyat amalı seçir. Bu yurdsevər, vətənpərvər oğlan 2019-cu ildə ordu sıralarına yola düşəndə hər qarşı Vətən torpağının qisasını erməni dığalardan alacağına söz verir.***

Xaqani canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində ön cəbhədə durur. Hətta bir-neçə dəfə azğınlaşmış düşmənlə üzbəüz gələn Astaranın qartal balası onların layiqli cavabını verə bilir. Bu hünəri, Vətənə olan sevgisi ona əsgərlərin, zabitlərin dərin hörmətini qazandırır. Əsir torpaqlarının taleyini, xalqın xoşbəxt gələcəyini düşünən təmiz ürəkli, vicdanlı, olduqca qeyrətli Vətən keşikçisinin bütün hərəkətləri xidmət etdiyi hərbi hissədə nümunə göstərilir.

İkinci Qarabağ müharibəsi başlanan gündən Xaqani Babazadə ən qaynar nöqtələrdə düşmənlə haqq savaşımıza girir. 30 il əsir düşən Vətən torpağın bir qarışının azadlığını canından əziz bilən igid əsgər olduğu hər döyüşdə çoxlu sayda erməni dığasını məhv edir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xocavəndin azadlığı uğrunda xüsusi rəşadət göstərir. Yağı gülləsini vecinə almadan qələbəyə doğru addımlayır və düşmənə vurduğu zərbələr gündən-günə artır. Hər zəfərdən sonra qəlbində olan Vətən sevgisi bir daha ilahiləşir.

Xaqanı Hadrud uğrunda gedən ağır müharibədə də "Təki Vətən yaşasın",- deyə ölümə meydan oxuya-oxuya son nəfəsinə qədər düşmənlə vuruşur. Tökdüyü qanla Vətənin daha bir guşəsində Azərbaycanın qələbə bayrağı dalğalanır...

Beləliklə, Xaqani ömrünün 19-cu ilində gələcək nəsillər üçün örnək olacaq şərəfli bir tarix yazıb gedir. Vətəndən oğul adını qazanan igid ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görülür.

Qəhrəman Xaqani Babazadənin şəhidlik zirvəsi Vətən sevgisindən boy tutdu. Odur ki, saflıq dünyasına dönərək milyonların ürəyində özünə əbədi yurd saldı...

***Zəfər Orucoğlu, AJB üzvü***